**07.11.2007 22:33**
**MƏNBƏ: ANS - PRESS**

# Qars - Axalkalaki dəmiryolu xəttinin Gürcüstan hissəsini «Azərinşaatservis» tikəcək

**Azərbaycan şirkətinin yaxın 10 gündə tikinti işlərinə başlaması üçün sabahdan müzakirələrə başlanılacaq**

Bu gün Qars-Tiflis-Bakı dəmiryolu xəttinin Gürcüstan hissəsini tikəcək şirkətin adı açıqlanıb. Gürcüstan dəmiryolu departamentinin «Kvarçaxi-Axalkalaki Dəmiryolu» layihəsinin direktoru Ramaz Georqadzenin ANS TV-nin Gürcüstan bürosuna verdiyi eksklüziv məlumata görə, tenderin qalibi Azərbaycanın «Azərinşaatservis» şirkəti olub.

Onun sözlərinə görə, Azərbaycan şirkətinin yaxın 10 gündə tikinti işlərinə başlaması üçün sabahdan müzakirələrə başlanılacaq.

Tender komissiyasına 20-dən artıq şirkət müraciət etsə də, son mərhələdə qalib 3 tikinti şirkətinin arasından seçilib.

Yaxın bir neçə gün ərzində dəmiryolunun tikintisinin təməlqoyma mərasiminin keçirilməsi nəzərdə tutulub. Mərasimdə Azərbaycan və Türkiyə prezidentlərinin iştirakı da gözlənilir.

Xatırladaq ki, nəqliyyat dəhlizi çərçivəsində Axalkalakidən Türkiyə sərhəddinə qədər 29 kilometr uzunluğunda yeni xətt çəkilməlidir. /ANS TV/

*© 2008 Bütün hüquqlar qorunur. Xəbərlərdən istifadə edərkən ANS-PRESS-ə istinad zəruridir.*